31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramınız mübarək!




# ANA KÜR



Dekabr 2022-ci il, N 11-12 (171-172)
Qəzet 21 fevral 2009-cu il tarixdən çıxır

İctimai, ekoloji maarifləndirici qəzet

# DOST mərkəzləri dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir




**Prezident İlham Əliyev Bakıda 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Xətai rayonunda yerləşən 5 saylı DOST Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi, 31 ünvanında yerləşən dördmərtəbəli mərkəzin ümumi sahəsi 4405 kvadratmetrdir. Mərkəz modern və konstruktiv üslubda layihələndirilib, mühəndis sistemləri baxımından ən yüksək tələblərə cavab verir.

Mərkəzdə 120 nəfərə yaxın işçi heyəti çalışacaq və "Könüllü DOST" proqramı üzrə 50 nəfər könüllü fəaliyyət göstərəcək. Burada gün ərzində 650-700 vətəndaşa xidmətin göstərilməsi nəzərdə tutulur.

Qeyd edək ki, sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələnin başlanmasını şərtləndirən, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək istiqamətində əhəmiyyətli dəyişikliyə səbəb olan DOST konsepsiyası ölkəmizdə həyata keçirilən institusional-struktur islahatlarının mühüm tərkib hissəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyi bu gün məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 12 istiqamət üzrə 153 xidmət göstərir. Bu günədək istifadəyə verilmiş DOST mərkəzlərində ümumilikdə 1 milyon 250 mindən çox şəxsə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,2 faiz təşkil edir.

Azərbaycan Prezidentinin idarəçilik fəlsəfəsi ilk növbədə sosial dövlət strategiyasına söykənir. Postmüharibə dövründə də sosial sahədə, o cümlədən DOST mərkəzləri vasitəsilə həyata keçirilən tədbirlər dövlətin sosialyönümlü siyasətini nümayiş etdirir.

Eyni zamanda, Prezident İlham Əliyevin tapşırığına əsasən, 2020-ci ilin dekabr ayından müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı müasir protezlərlə təmin olunmasına başlanıb. Ötən dövrdə artıq 379 şəxs yüksək texnologiyalı 394 ədəd müasir 4-cü nəsil protezlə təmin edilib.

Haqqında məlumat verilən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində isə şəhid ailələri üzvlərinin, müharibə əlillərinin və onların uşaqlarının, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, aztəminatlı ailələrin sırasından istedadlı şəxslərin müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün imkanlar yaradılıb.

Beləliklə, istifadəyə verilən növbəti DOST Mərkəzi sosial xidmətlər sahəsində daha böyük ərazini və daha çox əhalini əhatə etməklə keyfiyyətli xidmətin coğrafiyasının genişlənməsinə şərait yaradacaq.

# İlham Əliyevdən turizmin inkişafına daha bir töhfə

## *"Şabran" İstirahət Kompleksinin açılışı bu istiqamətdə mühüm addımdır*

Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şabran rayonunun Pirəbədil kəndində yerləşən kompleks paytaxt Bakıdan 147 kilometrlik məsafədədir. Kompleksin ərazisində 12,6 hektar sahədə inşa olunan otel müxtəlif kateqoriyalı 119 nömrədən, birmərtəbəli 10, ikimərtəbəli 20 kottecdən ibarətdir.







Kompleks Azərbaycanda Hindistanın qədim təbabət sistemi - Ayurveda ilə müalicə metodlarını tətbiq edən ilk istirahət mərkəzidir. Burada peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssisləri tərəfindən Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya metodları təklif edilir.

"Ayurveda Spa" mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz vardır. Burada, həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

Eyni zamanda, kompleksdə "Rübai", "Ahəng", "Ocaq" restoranları, "Misra Lobby Lounge", "Badə Lounge Bar", "Aura Cafe", müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək.

Oteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik "Bayatı" və "Şiraz" konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.

Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir.

Beləliklə, bu kompleksin istifadəyə verilməsi bölgələrdə turizm infrastrukturunun və xidmət səviyyəsinin yaxşılaşdırılması baxımından növbəti mühüm addımdır.

**Rahim Hüseynov-75**

# Salyanın fəxri



*Tibb elmləri doktoru, professor, Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektoru, Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvü, akademik Yusif Məmmədəliyev və akademik S.Vavilov adına Beynəlxalq mükafatlar, Dünya İnformatizasioloqları Elitası ünvanlı Beynəlxalq müsabiqələr laureatı, Mahmud Kaşqari adına Beynəlxalq Fondun medalını və "Dünya Azərbaycanlıları" İctimai Mərkəzinin "Qızıl Buta" mükafatını almış həmyerlimiz, Salyanımızın fəxri Rahim Hüseynovun 75 illik yubileyi münasibəti ilə növbəti sayımızı təqdim edirik*

## Gözlərindən ürəyi görünən insan haqqında düşüncələr

Ağayana görkəmi, kübar münasibəti, təmkinli danışığı…Mən Rahim müəllimi çoxdan tanımıram, cəmi bir neçə dəfə atüstü görüşmüşük. Oturub əməlli-başlı dərdləşməyə, necə deyərlər, bir-birimizi "kəşf" etməyə vaxtımız, macalımız olmayıb. Ancaq bununla belə, qəlbimdə, yaddaşımda qalan əsas cizgilər-məhz bunlardır.

Bir dəfə Rahim müəllimə yaxın olan adamların birindən soruşdum:

-Bilmirsən, Rahim müəllimin nəslində, kökündə bəylik olmayıb?

-Düzü, bilmirəm,-dedi,-sonra da əlavə etdi: -Rahim müəllim öz elə bəydir də…

Müsahibimdən daha heç nə soruşmadım. Ancaq orası da var ki, bəylik, əsilzadəlik sonralar qazanılan keyfiyyət deyil axı. Deməli, kübarlıq, müdriklik, təkrarsızlıq Rahim müəllimin qanındadır, canındadır, əslindədir, kökündədir…

***

Bu yazı nə işlədiyim redaksiyanın sifarişidir, nə də başqa qəzet və jurnal redaksiyasından, radio və televiziyadan xahiş etmişlər. Ancaq yazıram, yaza-yaza da düşünürəm ki, çox yəqin ki, əvvəl-axır özünün də xəbər tutacağı bu yazı, bəlkə də heç çap olunmadı. Eşitmişdim ki, belə şeylərdən xoşu gəlmir. Hər halda, çoxdan ürəyimdə qəlb ehtiyacından doğan bu yazını yazmaya bilməzdim. Axı, indi Allah adamı, nadir adam, yaxşı adam çox azdır və onların fərqi cəhətlərini, müstəsna keyfiyyətlərini, çoxlarında görmədiyimiz əxlaqı və mənəvi ölçüləri görmək, qiymətləndirmək, bunu başqalarına da nümunə göstərmək, ibrət dərsi götürmək özü də bu millətə, xalqa, Vətənə xidmət etmək deməkdir. Unutmaq olmaz ki, həyatımızı yaşadan, zənginləşdirən, irəli aparan məhz belə ins anlardır…

Rahim Hüseynov haqqında bildiklərim bunlardır: Salyan şəhərində doğulub, Azərbaycan Dövlət Tibb Universitetini bitirib. Bir müddət öz rayonlarında çalışıb. Sonra Bakıya, Respublika Səhiyyə Nazirliyinə işə dəvət olunub. Burada adi əməkdaşdan nazir vəzifəsinə qədər çətin, şərəfli və mürəkkəb bir inkişaf yolu keçib. "Mürəkkəb" sözünü təsadüfən yazmıram. Həqiqətən. Rahim Hüseynovun nazir müavini və nazir işlədiyi illər Azərbaycan xalqının ictimai-siyasi tarixinin ən ağır, mürəkkəb və keşməkeşli dövrlərindən olub. Hazırda "Təfəkkür" Universitetində birinci prorektor vəzifəsində çalışır. Professordur. 100-ə yaxın elmi əsərin və məqalənin müəllifidir. 1990-cı ildə Respublika Ali Sovetinin deputatı seçilib. Qarabağ müharibəsi veteranı, xoşbəxt ata və xoşbəxt babadır, vəssalam…

Sizcə, hər hansı insan haqqında geniş yazı hazırlamaq üçün bunlar kifayətdirmi? Əsla, yox. Elə isə, ğəs onda niyə görüşüb ətraflı söhbət etməmişik? Bu barədə yuxarıda da danışmışam, indi bir daha təkrar edirəm: ən azı ona görə ki, qəti blirdim, razı olmayacaq. Ona görə də güc verdim müşahidələrimə, onunla ayaqüstü görüş və söhbətlərdən aldığım təəssüratlara, düşüncələrimə, nə olar-olar…

Rahim Hüseynov Allaha, taleyə, qismətə inanan insandır. "Allah adamı" ifadəsi burada məncə, yerinə düşər. Bu ifadəni əsasən, nadir adamlar haqqında işlədirlər. Özü də bunun üçün təkcə kiməsə yaxşılıq etmək, kiminsə əlindən tutmaq, arxa olmaq azdır. Gərək Böyük Yaradanı, Allahı daim başının üstündə görəsən, yüksək əxlaq yiyəsi, saflıq, səmimilik nümunəsi olasan.

Əgər haçansa Rahim müəllimdən müsahibə götürəsi olsam, mütləq birinci bu sualı verərəm:

-Yaşınızın, təcrübənizin ən bəhrəli vaxtında vəzifədən - respublika səhiyyə naziri vəzifəsindən azad edilmisiniz. Həmin anlarda qəlbinizdən nə keçirdi, nə düşünürdünüz?

Əslində Rahim müəllimin vəzifədən azad edildikdən sonrakı həyatı bu suala dəqiq cavab verir: ağır davranış, sakit münasibət, olub-keçənlərə, baş verənlərə təmkinli baxış, kiçik bir taym-autdan sonra özünü səfərbər etmək, toparlamaq qeyrəti…Necə deyərlər, igid odur, atdan düşə, atlana…

Elə buradaca yerinə düşər desəm ki, Rahim Hüseynov ağır adamdır: sözün mənəvi və fiziki mənasında. Başqalarını deyə bilmərəm, mən bu paralelliyin özündə bir qədər qanunauyğunluq, bir nizam-tərəzi görürəm…

Hər halda, ötən illər bu həqiqəti bir daha təsdiq etdi. Çoxlarından fərqli olaraq yüksək vəzifədən azad edildikdən sonra Rahim Hüseynovun nə el-oba, ictimaiyyət içindəki, nə dost-tanış, qohum-qonşu arasındakı xətir-hörməti əskilmədi, hətta bir az artdı da. Bu baxımdan o, köhnə bir streotipi də qıra bildi: nə qədər ki, vəzifə vardı, hörmət də vardı, vəzifə getdi, hörmət də getdi. Rahim müəllim çoxlarına sübut edə bildi ki, vəzifə, hətta nazir vəzifəsi də ona heç bir əlavə hörmət və nüfuz qazandırmayıb, əksinə, onun şəxsiyyəti, yüksək əxlaqi və mənəvi keyfiyyətləri vəzifəyə hörmət və nüfuz qazandırıb.

Qarabağ müharibəsinə aid kitablarımın birində belə bir epizod var: "Respublika səhiyyə və müdafiə nazirliklərinin təşəbbüsü ilə Ağdama səyyar hospital gətirilib. Yaralıların müayinə və müalicəsinə səhiyyə nazirinin müavini Rahim Hüseynov nəzarət edir.

-Tibbi yardım öz yerində, ermənilərin adamlarımıza qarşı vəhşiliklərini sənədləşdiririk, - deyə R.Hüseynov bildirir. - Həlak olanların hamısını müayinədən keçiririk. Bütün bunlar ermənilərin tarixi cinayətlərini sübut etmək üçün lazım olacaq".

İndi bu sətirlərin yazıldığı vaxtdan - 1992-ci ilin may ayından çox keçib və mən təəssüf edirəm ki, o dövrdə əməlli-başlı söhbət edə bilməmişik. Düzdür, buna heç macal da yox idi. Müharibəyə, cəbhəyə, döyüşə bələd olan adamlar yaxşı bilir ki, ölümün gözlə qaş arasında olduğu o ağır, vahiməli anlarda sabaha, hətta bir an sonraya sağ qalmaq gümanının olmadığı vaxtlarda belə şeylər yada düşmür. Ancaq hər halda, cəbhə bölgələrindən, döyüşdən və ölüm-dirim anlarından bəhs edən yazımda Rahim müəllimin adını oxuyanda bir müəllif olaraq məmnuniyyət hissi keçirdim.

Bir halda ki, söhbət Qarabağ müharibəsindən düşdü, ədalət naminə etiraf etməliyik: hərbi hospitalların yaradılması və formalaşdırılması Rahim Hüseynovun adı və fəaliyyəti ilə bilavasitə bağlıdır.

İndi bu sətirləri yazarkən bir faktı da xatırlayıram: Rahim müəllim nazir müavini və nazir vəzifəsində çalışdığı illərdə Qarabağ bölgəsində, cəbhə xəttində 487 gün ezamiyyətdə olmuşdur. Bu hələ rəsmi sənədlərdə əksini tapan müddətdir. Qeyd olunmayan günlərin sayı, bəlkə daha çoxdur. Daha bir maraqlı fakt: Rahim Hüseynov 1195 saat Qarabağ səmasında uçuşda olmuşdur. İndi ola bilər ki, bu fakt və bu rəqəmlər çoxlarında heç bir emosional duyğu yaratmasın. Bəli, ağlınız dinc vaxtlarda "TU-154" təyyarəsi ilə sakit və rahat reyslərə getməsin. Cəbhə xəttinə, mühasirədə olan kəndlərə, döyüş bölgəsinə hər uçuş ölümlə üz-üzə dayanmaq idi! Həmin illərdə vurulan təyyarə və vertolyotlarımızı xatırlamaq kifayətdir. Deməli, uçuşdan əvvəl bu dünya ilə vidalaşmaq, necə deyərlər, kəlmeyi-şəhadətini oxumaq lazım idi. Ancaq heç bir ölüm və vahimə xofu onu bu qorxulu səfərlərdən saxlaya bilmirdi.

Burada məsələnin başqa tərəfi, necə deyərlər, dağın o biri üzü də var axı. O illərdə vəzifə sahibi olanların çoxu sərhəd kəndlərinə, cəbhə xəttinə, döyüş zonasına getmək əvəzinə, arxa rayonların qonaq evlərində daldalanmağı daha üstün tuturdular. Rahim Hüseynovun yolu isə bilavasitə cəbhə xəttinə, mühasirə vəziyyətində olan kəndlərə idi.


"DÜNYA AZƏRBAYCANLILARI" İCTİMAİ MƏRKƏZİ

Respublikada respondentlər arasında keçirilən rəy sorğusunun nəticələrinə dair

Rahim Hüseynov

"Təhsil müəssisəsində beynəlxalq təhsil sisteminin tətbiqində fəaliyyətinə görə"

"QIZIL BUTA"

Mükafatı ilə təltif olunur

"Dünya Azərbaycanlıları" İctimai Mərkəzi

Bakı - 2016

"Allah adamı" ifadəsini tez-tez işlədirik. Bu, əlbəttə, təsadüfi deyil. Onun həyatının müharibə dövrü bu baxımdan çox ibrətamizdir: dəflərlə ölümlə üz-üzə dayanıb, uçduğu vertolyot gülləyə tutulub, mindiyi maşina atəş açılıb, mühasirəyə düşüb… Ancaq Allahın nəzərləri həmişə onun üstündə olub, Böyük Yaradan onu amanında saxlayıb, namərd gülləsindən qoruyub. Bu yerdə yadıma Rahim müəllimin müsahibələrindən biri düşür: "…Səhər iş yerimdən mərhum daxili işlər naziri Məhəmməd Əsədovla danışdım. O, bir qrup dövlət xadiminin bu gün Qarabağa yola düşəcəyini bildirdi, xahiş etdi ki, dövlət katibi Tofiq İsmayılovla danış, məsləhət bilsə, yenidən onlarla birgə Ağdama, Qarabağın digər yaşayış məntəqələrinə gedim. Allahın varlığına, bəxtə, qismətə o zaman mən bir daha inandım. Tofiq müəllimin köməkçisindən çox hörmətli akademikin məni soruşmadığını öyrəndikdə o "istəyirsiniz, sizi yolda İsmayılovla calaşdırılm,-dedi. Mən razı olmadım. Bilirdim ki, yolüstü onsuz da iş başından aşır, lazım bilsə, yəqin ki, özü məni axtarar…Təxminən 10-12 radələrdə yenidən telefon nömrələrini yığmağa başladım. Sanki İlahi bir qüvvə əllərimdən tutdu və …nömrələri axıradək yığmadan dəstəyi yerinə qoydum.

Beləcə, onlarla birlikdə Ağdama getmədim. Bakıda yarımçıq qalmış işlərimi sona yetirməyə başladım. Vertolyotun partladılması barədə xəbəri eşidəndə isə bütün bədənim gizildədi. Gözlərim önünə xətrini dünyalar qədər istədiyim Tofiq İsmayılov, Məhəmməd Əsədov, Vaqif Cəfərov, İsmət Qayıbov… gəldi.

…Azərbaycanın qaymaqlarını xilas etmək iqtidarında deyildim. Əlacım bir şeyə çatmadığından kabinetdə oturub hönkür-hönkür ağladım. Sonra isə qoşuldum onların cənazələrinin Ağdamdan Bakıya gətirilməsinə, məhkəmə-tibbi ekspertizasına və nəhayət, dəfn mərasimində iştiraka".

Fikirləşdim ki, bəlkə Rahim müəllimin o illərə aid qeydləri, ya gündəliyi var? Ancaq təəssüf ki, o, indi yalnız yaddaşına arxalanır. Heç bir qeydi, ya gündəliyi yoxdur.

Elə buradaca yadıma başqa bir epizod düşür: 1992-ci ildə korpus komandiri olan generalla görüşdük. Qızğın döyüşlər gedirdi. Qəzet üçün növbəti reportaj hazırlayırdım. Fotoqraf da mənimlə idi və təbii ki, şəkil çəkmək istəyirdi. Ancaq o, qəti etiraz etdi, hətta əsəbiləşdi:

-Döyüş meydanı çəkiliş meydançası deyil,-dedi.

İllər keçdi, atəş elan edildi. Generalı Respublika Müdafiə Nazirliyinə məsul vəzifəyə dəyişdirdilər. Sonrakı görüşmələrimizin birində generaldan çapa hazırlanan müharibəyə aid növbəti kitabım üçün şəkillər istədim. Təəssüflə başını buladı:

-Heç nə qalmayıb,-dedi.

Görəsən. Digər bir çox vacib məsələlər kimi bunu da. Yəni hər şeyi vaxtında-vədəsində sənədləşdirməyi, tarixə çevirməyi nə vaxt, necə, harada öyrənməliyik? Burada söhbət Rahim müəllimdən düşdü, ancaq orasını da etiraf edək ki, bu giley-güzarda şamının payı var. Daha çox da biz qələm sahiblərinin.

***

El arasında belə bir məşhur deyim var: qabaqlar yaxşı kişilər, bir də yaxşı atlar olub. Həmin yaxşı kişilər o yaxşı atları minib gediblər. Bu məntiqlə, əlbəttə, mübahisə etmək olar. Bəlkə yaxşı kişilər və yaxşı atlar keçmiişlərə nisbətən azalıb. Bax, bu, həqiqətdir və bu məntiqlə hökmən razılaşmaq lazım gəlir.

Görünür, elə buna görədir ki, belə nadir adamlara hamı xüsusi hörmət və ehtiramla yanaşır, xətrini əziz tutur, onları həyatın, bədxah insanların hər cür namərd hücumlarından qorumağa, hifz etməyə çalışırlar. Qətiyyətlə demək olar ki, Rahim Hüseynov məhz belə nadir şəxsiyyətlərdəndir.

Bir müşahidəm də var: bu insandan küsən, inciyən, narazı qalan görməmişəm, eşitməmişəm. Hətta onun tərəfindən müxtəlif səbəblər üzündən cəza alsalar belə. Bu, əslində ilk baxışda qəribə, anlaşılmaz bir duyğudur. Çünki hamı, hətta nöqsanı olan da özünü həmişə haqlı sayır, cəzadan yayınmağa çalışır. Ancaq Rahim müəllim kimə nə irad tutursa, dərhal razılaşır, qəbul edir. Burada, bəlkə çox səbəblər axtarmaq olar. Mən birini deyəcəyəm: Rahim müəllimdə qərəz, hayıf almaq ehtirası, mərdi qova-qova namərd etmək cəhdi yoxdur və adamlar da bunu çox gözəl bilir.

Rahim müəllimin həyatına, keçdiyi yola, bugünkü fəaliyyətinə yaxından bələd olanlar yaxşı bilir. Elə bil ki, bu insan dünyaya yalnız yaxşılıq etmək, kömək durmaq, arxa-dayaq olmaq üçün gəlib.

Rahim müəllim kinli adam deyil və heç kimə də qibtə ilə baxmır, həsədlə yanaşmır. Böyük Yaradan ona əsl insana xas olan bütün daxili və xarici gözəllikləri səxavətlə bəxş edib. Ancaq burada qəribə bir paradoks da var: bütün ömrü boyu ona həsədlə baxıblar, qibta ediblər. Düzdür, Rahim müəllim həyat yollarında bunun çox ağrısını-acısını dadıb, enişli-yoxuşlu, dönümlü-döngəli gədiklərdə çox zərbələr alıb. Ancaq hər dəfə də bunları tale, qisməti və alın yazısı ilə bağlayıb. Məmməd Araz demişkən, sel boğan dərələrdən böyük qürur və ləyaqətlə çıxıb, öz haqq yolundan dönməyib.

***

…Rahim müəllimin gözlərinə baxıram. Baxıram demək azdır. Mən həm də bu gözlərdən onun ürəyini görürəm. Bu da bir müstəsnalıq, bir nadirlik, bir xoşbəxtlikdir: onun gözlərinə diqqətlə baxıb ürəyini görmək, oxumaq mümkündür. Ona görə ki, bulanıq deyil, yerə-göyə baxmır, adamdan qaçmır, bulaq suyu kimi dupdurudur. Üstəgəl, ürəyin nə düşündüyünü, gözün nə gördüyünü bizə çatdıran dil…

Bəli, Rahim Hüseynov o kəslərdəndir ki, onun gözü də, ürəyi də, dili də eyni söz deyir. Məncə, dünyada əsl insan üçün bundan böyük xoşbəxtlik ola bilməz…

*Ziyəddin SULTANOV,*
*Respublikanın Əməkdar jurnalisti.*
*525-ci qəzet.*

**REDAKTORDAN**

## Zamanın sınaqlarından çıxan həqiqət

Salyanımızın fəxri, Azərbaycanımızın çox hörmətli, nüfuzlu alimi, siyasətçisi, həkimi, beynəlxalq səviyyəli informatizasioloqu Rahim Məmmədhüseyn oğlu Hüseynovun 75 yaşı tamam olur. "Ana Kür" qəzeti doğma Salyanımızın, ölkəmizin ictimai-siyasi həyatında müstəsna rolu olmuş simaların həyat fəaliyyətinin işıqlandırılması ənənəsinə sadiq qalaraq doğma yurdun son 50-60 ildə yetirdiyi ən unikal xarakterli ziyalısı hesab etdiyimiz Rahim Məmmədhüseyn oğlunun çox zəngin və mənalı ömrünün ayrı-ayrı məqamlarına aid silsilə qəzet sayları həsr etmişdir. Bu təşəbbüs Salyan ziyalılarından gəlsə də, respublikamızın ən müqtədir insanları da bu sırada öz fikir və düşüncələrini bizimlə bölüşmüş, yaşadığı ziyalı ömrünün nəsillərə nümunə olduğunu vurğulamış, yubiliyara sağlam ömür və elmi-pedaqoji fəaliyyətində yeni nailiyyətlər arzulamışlar

2022-ci ilin İyul ayından başlayaraq ardıcıl olaraq bu mövzuya həsr edilən "Ana Kür"-ün 5 çap sayında edilən çıxışlar, yazılan xatirələr Rahim müəllimə göstərilən ehtiramın kiçik bir nümunəsidir.

Qəzet saylarında bu mövzuda nəzərdə tutulan yazıları tam əhatə edə bilməsək də zamanında Rahim müəllim haqqında ürək sözlərini demiş ağsaqqal ziyalıların fikirlərini dərc edə bilmişik. Muğan bölgəsinin elm,ədəb və ürfan sahibi, ağsaqqalı olmuş İmamverdi Əbilov, Əməkdar həkimimiz Əvəzağa Məlikov, xalq şairi Zəlimxan Yaqub, professor Əjdər Ağayevin fikirləri bizim üçün çox əziz idi.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmovun, rayonun hörmətli ağsaqqallarından Əliağa Hüseynov, Məhəmməd Ağayev, Allahverdi Piriyev, Əlixeybər Axundov, respublikamızın tanınmış elm və incəsənət adamlarından Ramiz Qurbanov, Vaqif Quliyev, Əliqismət Lalayev, Arif Əliyev, Qurban Əmirov və başqalarının ürək sözlərində Rahim müəllimin kecdiyi ömür yoluna yüksək qiymət verilmiş və onun bənzərsiz fərdi keyfiyyətləri təqdir edilmişdir. Bütün bunlar isə təsadüfü deyildir.

Çünki, Rahim müəllim özündə tarix yaşadan, yurdu, doğma Salyanının ən xarakterik xüsusiyyətlərini, koloritini dərindən bilən və bu torpağı, onun insanlarını sevən, dərdinə yanan, köməyini əsirgəməyən bir insandır. Etiraf etmək lazımdır ki, həyatı, elmi, pedaqoji və ictimai fəaliyyəti xüsusi tədqiqatın predmeti olsa da bu barədə çox az iş görülmüşdür. On illərlə bu mövzu araşdırıcı nəzərindən və publisistik qələmin süzgəcindən keçməmiş qalmışdır. Bu istiqamətdə xüsusi ilə təvəzökar olan Rahim müəllim özü də təşəbbüskar olmamışdır. İstər özünün, istərsə də onun haqqında çap edilmiş kitab, məqalə digər mətbu materialları müasir oxucuya əliçatan deyildir. Çünki, internet resurslarının müxtəlif elektron informasiya məkanlarında məlumatlar lazımı səviyyədə yerləşdirilməyib və bu boşluğu doldurmağa ehtiyac vardır.

İndiyə kimi müxtəlif mənbələrdə və "Ana Kür" qəzetində çap edilmiş yazılarda müəlliflər Rahim müəllimin fərdi keyfiyyətlərini önə çəkməyə çalışmışlar. Rahim müəllim özü də tanınmış insanlar haqqında ancaq müsbət fikirdə olmuşdur. Məlumatlılıq, fikrin yüksək ifadə bacarığı, inandırıcılıq qabiliyyəti Rahim müəllimin istər elmi, istərsə də publisistik yazılarının əsas keyfiyyətidir. Bu xarakter onda çox gənc yaşlarından formalaşmağa başlamış və tale yolunu təyin etmişdir. Rahim Hüseynovun istər həkim peşəkarlığı, istərsə də ictimai-siyasi həyatdakı fəaliyyəti, onun zəngin potensialı çox erkən olaraq diqqət çəkmiş və o, artıq 1975-ci ildə 28 yaşında Azərbaycan SSR Səhiyyə Nazirliyinin aparatına məsul vəzifəyə təyin edilmişdir. Bakıda işləməyinə baxmayaraq, o həm də salyanlıların səsini eşidən, onların müraciət etdikləri ən yaxın insanlardan biri kimi qalmış, təkcə tibb sahəsində deyil, həmyerlilərinin müxtəlif məzmunlu müraciətlərinə də yardımçı olmağa çalışmışdır. Bu ənənə uzun illər davam etmiş və ən nəhayət, həmyerliləri 1990-1995-ci illərdə ona Milli Məclisdə deputat kimi Salyanı təmsil etməyi etibar etmişlər. Bu illərdə və sonrakı dövrlərdə də Rahim müəllim dünyaya göz açdığı rayonun insanlarının yanında olmuş, onların xeyir-şərində iştirak etməklə elinin, mənsub olduğu nəslin ağsaqqallıq missiyasını davam etdirmiş, sosial-iqtisadi inkişafa təkan verə biləcək yeni səhiyyə obyektlərinin inşasına nail olmuşdur. Bütün bunlarla bərabər, Rahim Hüseynov mühüm dövlət tədbirlərində, seçki və referendum kimi siyasi kampaniyalarda, ənənəvi günlərdə də həmişə həmyerliləri ilə birlikdə olmuş, onların fikir, təklif və arzularının tribunasına çevrilmişdir. Bu missiya bu gün də davam edir.

Bu bir həqiqətdir ki, 75 illik ömrün tam 50 ilindən çoxunun dövlətinə, xalqına, bir vətənpərvər oğul kimi xidmət edən Rahim müəllim haqqında onu tanıyanların, şəxsən üzünü görməyən, həmsöhbət olmayan insanların belə deyilməmiş sözləri, mətləbləri vardır. Biz qələm sahibləri də bu barədə publisistik sözün imkanlarından hələ tam istifadə etməmişik. Və bunu etməliyik.

Çoxsaylı oxucularımız adından hörmətli Rahim Hüseynovu 75 illik yubileyi münasibəti ilə təbrik edir, ona həyatda ən gözəl nemət olan can sağlığı arzulayırıq. İnanırıq ki, qarşıdakı illərdə daha böyük rəqəmlərlə ifadə olunacaq yubileyləri özünün iştirakı ilə, həmyerlilərinin məhəbbəti ilə qeyd ediləcəkdir.

Biz Sizinlə fəxr edirik. Əziz Rahim Məmmədhüseyn oğlu!

*Rüstəm Məlikov*
*Ali Media mükafatı laureatı*

*Oqtay Rza*

### Əsl ziyalıya örnəksən

Ürəyin eşq ilə döyünür hər an,
Ürfan sırağıdır düşünən beynin.
Rahim bəy! Fədakar alim oğlusan
Müdrik, unudulmaz
Məmmədhüseynin.

Ötüb cocuqluğun Kür sahilində,
Şagird xatırlayar müəllimini;
Tez-tez yad edirik - alman dilində
Bizi danışdıran Aslan əmini.

***

Məsləhət bildiyin dərmanlar kimi
Xəstəni dirçəldən kəlamların var;
Fəsillər düzülüb karvanlar kimi-
Gələcək illərə salamların var.

O gün oturmadın yuxarı başda:
-Axı hər nazirdən ağsaqqal olmaz!
…Qarabağ uğrunda gedən savaşda-
Ön cəbhə xəttində görünmədin az.
Çağdaş tibb elminə yenilik bəxş et,
Əsl ziyalıya örnəksən, örnək!
"Təfəkkür" adlanan Universitet
Səntək istedadla öyünsün gərək!

…Neçə saf tarixə vurulub damğa,
İşıq qaranlıqla çox əlləşibdir!
Rahim qayğısıyla Mir Bağır Ağa
Salyana qayıdıb heykəlləşibdir.

Deyirsən:-Yıxılan adamı qaldır,
Hopsun xeyirxahlıq xasiyyətinə!
Nazim məhəbbəti əla misaldır
Qardaşın qardaşla ünsiyyətinə.

Niyə gec yazıram bu şeiri, niyə?
Ən ali əlamət diqqət-anımdır;
Sözüm alicənab, dost Rahim bəyə
Kiçicik, minnətsiz ərməğanımdır!

*01.02.2004*

# Beynəlxalq birlik Ermənistanın ekoloji terroruna "Dur" deməlidir

Məlumdur ki, Ermənistan 30 il işğal altında saxladığı ərazilərmizdə əsl vandalizm törədib. Bütün yaşayış məntəqələri, infrastruktur, tarixi, mədəni və dini abidələr dağıdılıb. Ermənilər Azərbaycanın ekologiyasına da ciddi ziyan vu-



rub, təbii sərvətlərimizi talayıblar. Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında ermənilər təbii sərvətlərimizi qanunsuz olaraq mənimsəməkdə və ekologiyaya ciddi ziyan vurmaqda davam edirlər.

İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı ilkin monitorinqə başlamalı idi. Amma Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı ilkin monitorinqi növbəti təxribat nəticəsində baş tutmadı. Belə ki, sülhməramlı kontingentin komandanlığı ilə Azərbaycan tərəfi arasında monitorinqə başlamaq barədə razılıq əldə olunsa da, Qarabağdakı qanunsuz erməni dəstələrinin təxribatı buna imkan vermədi. Nümayəndə heyəti Rusiya sülhməramlılarının müşayiəti ilə faydalı qazıntı yataqlarına, xüsusilə, Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının yerləşdiyi ərazilərə gəlsələr də, hər iki istiqamətdə təxribatla üzləşdilər. Buna cavab olaraq isə bir neçə gündür ki, Azərbaycan QHT-lərinin, ekoloqlarının və ictimai fəalların Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə Şuşa - Xankəndi yolunda keçirdiyi etiraz




aksiyası davam edir. Bu aksiya Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının, xüsusilə, Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etiraz əlaməti olaraq həyata keçirilir.

Azərbaycanın vətəndaş cəmiyyətinin məsələyə reaksiyası Ermənistan tərəfindən manipulyasiya edilir. Onlar haqlı tələblərlə çıxış edən aksiya iştirakçılarının addımlarına siyasi don geyindirməyə və vəziyyəti fərqli yalanlarla yozmağa çalışırlar. Məsələn, aksiya iştirakçılarının Laçın yolunu bağlamasının guya bölgədə humanitar fəlakətə yol açacağını iddia edən Ermənistan bununla da dünya ictimaiyyətinin diqqətini məsələnin əsl məğzindən yayındırmağa cəhd edir. Halbuki Azərbaycan fəalların sülh aksiyası Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid yaratmır. Keçirilən sülh aksiyası səbəbindən Qarabağ ermənilərinin yaşadığı ərazilərin qazla təchizatı dayandırılmayıb və həyati əhəmiyyətli yüklərin keçməsinə maneçilik törədilməyib. Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri sadəcə talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısını almağa çalışır . Bir sözlə, bu məsələdə də erməni məkri özünü biruzə verməkdədir. Nəzərə almaq lazımdır ki, 10 noyabr birgə bəyanatına əsasən, artıq iki ildən çoxdur ki, Azərbaycan ərazisini tərk etməli olan erməni silahlı birləşmələri təxribatlarından əl çəkmirlər. Ötən dövr ərzində artıq bir neçə dəfə genişmiqyaslı təxribatın qarşısı Azərbaycan Silahlı qüvvələri tərəfindən alınıb. Sonuncu belə cəhd bu ilin sentyabrında baş vermişdi ki, ermənilər bu təxribatın cavabını layiqli şəkildə aldılar. Digər tərəfdən, Laçın yolu ilə Ermənistan ərazisindən həmin silahlılara silah-sursat, texnikalar daşınır. Bu faktı Azərbaycanın təhlükəsizlik orqanlarının rəsmiləri də vurğulayıb.

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır. Rəsmi İrəvanın və bəzi beynəlxalq dairələrin hadisələrə görə Azərbaycanı ittiham etmək cəhdləri də əsassızdır. Aksiya keçirən insanlar humanitar məqsədlə gedən maşınların hərəkətinə imkan yaradır. Əslində beynəlxalq birlik məsələnin mahiyyətinə diqqət yetirməli, Laçın yolundan qeyri-qanuni hərbi məqsədlər üçün istifadə edən Ermənistanı qınamalı, ermənilərin ekoloji terror, mina terroru siyasətinə "Dur" deməlidir.

*Rüstəm Məlikov,*
*"Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinən Kömək İctimai Birliyinin sədri*

# Yetkinlik yaşına çatmayan şəxslərin narkotik vasitələrdən çəkindirilməsi cəmiyyətimizin ümdə vəzifəsidir

Narkomaniya bəşəriyyətin düçar olduğu ən təhlükəli bəladır. O, təkcə ayrı-ayrı insanların sağlamlığını deyil, bütövlükdə cəmiyyətin və ictimai quruluşun dayaqlarına ciddi ziyan vurur. Onun acı nəticələrini vətəndaşın özü deyil, birinci növbədə, ailə, kollektiv, dövlət və cəmiyyət çəkməli olur. Əgər əvvəllər o, natural təsərrüfat səviyyələrində mövcud olmaqla narkotik bitkilərin əkildiyi ərazi ilə məhdudlaşırdısa, artıq narkotik tərkibli bitkilər becərilən yerlərin sərhədini çoxdan aşaraq dünyanın bütün ölkələrinə nüfuz etmiş və cəmiyyət üçün sosial, iqtisadi, siyasi, bioloji bəlaya çevrilmişdir.

BMT-nin Narkotiklər və Cinayətlər İdarəsi tərəfindən 2021-ci il üzrə dərc edilmiş "Dünya Narkotik Hesabatı"nda qeyd edilir ki, hazırda Yer kürəsində 275 milyona yaxın insan müntəzəm olaraq narkotik vasitələrdən istifadə edir və bu, 2010-cu illə müqayisədə 22% artım deməkdir. Azərbaycanda 2021-ci ildə qeydiyyatda olan narkotik istifadəçilərinin sayı 34602 nəfər olub. Ötən il qeydə alınan narkotik istifadəçilərinin 566 nəfəri qadın, 14 nəfəri isə yetkinlik yaşına çatmayan şəxs olmuşdur. Təbii ki, reallıqda bu rəqəmlər daha böyükdür.

Bu gün Azərbaycan cəmiyyətini narahat edən problemlərdən biri də məhz narkomaniya ilə mübarizənin daha effektli aparılması və bu işdə vətəndaş məsuliyyətinin rolundan səmərəli istifadənin təşkilidir. Hər birimiz buna təkcə bir ictimai vəzifə kimi baxa bilmərik. Narkomaniya ilə mübarizə bizim vətəndaşımızın, onun ailəsinin mənsub olduğu millətin və dövlətin sağlam olması, genofondumuzun qorunması məsələsidir. Ciddi narahatlığa səbəb olan vəziyyət ondan ibarətdir ki, bu bəlaya qurşananların sırası getdikcə cavanlaşmaqdadır. Respublika üzrə qeydiyyatda olan narkomanların tərkibində yetkinlik yaşına çatmayan şəxslərin sayı kifayət qədər çoxdur.

Bunlar kimdir? Cavabını hamımız bilirik. Bunlar bizim balalarımız, oğullarımızdır. Bunlar xalqımızı öz intellekti ilə dünya miqyasında təmsil etməyə qadir ola bilən yeniyetmələrimizdir. Bunlar əlində silah ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi üçün düşmənlə üz-üzə dayanacaq, müzəffər ordumuzun Zəfər manifestini davam etdirməyə qadir olan gənclərimizdir.

Biz zərərli vərdişlərə, xüsusən spirtli içki və narkomaniyaya meylli olan xalq deyilik. Yəni, bizim ata-babalarımız heç vaxt narkotik bitkilər əkib-becərməmiş, onun satışı ilə məşğul olmamış və bu hallar azərbaycanlı ailəsi, bütövlükdə çəmiyyətimiz tərəfindən qəbul edilməmişdir. Ona görə də yetkinlik yaşına çatmayan gənclərimizin pis vərdişlərdən, xüsusən narkotik vasitələrin təsirindən uzaqlaşdırmaq mümkündür. Bunun üçün ölkəmizdə hər cür şərait vardır. İstər dövlət səviyyəsində, istər ailə, istərsə də vətəndaş cəmiyyəti institutları səviyyəsində. Yetər ki, bunun vacibliyini daha dərindən anlayaq.

Onu demək yerinə düşər ki, Azərbaycan Respublikasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə dövlət səviyyəsində, mülki və hüquqi qanunvericilik zəmini ndə təşkil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlar, qəbul edilən dövlət proqramları bu məsələnin nə qədər prioritet olduğunu göstərməkdədir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu sahədə qəbul edilən mühüm dövlət sənədi olmaqla ictimai və sosial həyatımızın, demək olar ki, bütün sahələrini əhatə edir. Proqramda əsas məsələlərdən biri də yetkinlik yaşına çatmayan şəxslərin narkotik vasitələrdən çəkindirilməsi üçün nəzərdə tutulan tədbirlər və bu istiqamətdə cəmiyyətimizin hər bir üzvünün üzərinə düşən vəzifələr müəyyənləşdirilmişdir.

Adı çəkilən dövlət proqramında yetkinlik yaşına çatmamış gənclərlə aparılan işin səviyyəsinin yaxşılaşdırılmasında ailənin, orta və peşə təhsili, ali məktəb müəssisələrinin imkanları ilə yanaşı, cəmiyyətimizin müxtəlif təbəqələrini təmsil edən qeyri-hökumət təşkilatlarının, ağsaqqallıq missiyasını daşıyan insanların, həmçinin səhiyyə, idman, incəsənət və gənclər təşkilatlarının rolu çox böyükdür. Proqramda xüsusi ilə vurğulanıb ki, yetkinlik yaşına çatmayanların və gənclərin təlim-tərbiyəsinə, məşğulluğuna, asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması, idman, incəsənət və ictimai faydalı əməklə məşğul olmaları üçün şəraitin yaradılması, narkotiklərə meylli şəxslər barəsində vaxtında qabaqlayıcı, profilaktik tədbirlərin görülməsi vacibdir.

Biz hamımız narkotiklərdən zərər çəkmiş uşaqların fərdi reabilitasiyasının və cəmiyyətə reinteqrasiyasının həyata keçirilməsi üçün dövlətimizə dəstək ola bilərik və olmalıyıq. Bu sahədə ixtisaslaşmış qeyri-hökumət təşkilatları isə narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə gənclər arasında maarifləndirici tədbirləri yeni dövrün tələbləri səviyyəsində təşkil etməklə bu sahədə həyata keçirilən tədbirlər, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətimizi mütəmadi olaraq məlumatlandırmalıdırlar.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında qanunvericiliyin müddəaları və tələbləri ilə bağlı əhali, xüsusən gənclər arasında geniş izahat və ictimai maarifləndirmə işləri aparılmalıdır.

Tanınmış ictimaiyyət nümayəndələri və din xadimlərinin, incəsənət və idman ustalarının iştirakı ilə mövzuya həsr olunmuş təbliğat xarakterli kütləvi tədbirlərin təşkil edilməsi həmişə müsbət nəticələr vermişdir.

Şəhər və rayonlarda asudə vaxtın səmərəli təşkili məqsədilə yeniyetmə və gənclərə xidmət göstərən dövlət müəssisələrinin fəaliyyətinin inkişaf etdirilməsi, bu sahədə çalışan mütəxəssis və əməkdaşların biliklərinin, bacarıqlarının və peşəkarlıq səviyyəsinin artırılması Proqramın tələblərindəndir.

Xatırlamalıyıq ki, yeniyetmələrin və gənclərin gələcək həyatı üçün böyük təhdidlər yaradan narkomaniyanın gəncləşdiyini və aşağı yaş kateqoriyalı insanlar arasında aludəçilik hallarının gün keçdikcə artdığını diqqətə çatdırmaqla bildiririk ki, gənc nəslin narkomanlığa yuvarlanmasının səbəblərini müəyyən etmək və onların aradan qaldırılmasında dövlətimizə dəstək olmaq ümdə məsələdir. Bu, eyni zamanda, cinayətkarlığın aradan qaldırılması, cəmiyyətimizin sağlam inkişafı, bütövlükdə isə müstəqil respublikamızın iqtisadi və sosial inkişafına çox böyük töhfə ola bilər.

*Toğrul Əhədzadə,*
*Salyan rayon prokurorunun köməkçisi, birinci dərəcəli hüquqşünas*

# Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyası iştirakçılarının bəyanatı

***"Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyi də bəyanatı imzalayanlar sırasına qoşulur***

Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına qarşı Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasının iştirakçıları bu aksiyanın BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi ilə bağlı bəyanat yayıblar.

AZƏRTAC bəyanatı təqdim edir:



"Biz, qeyri-hökumət təşkilatlarını təmsil edən nümayəndələr Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərin qanunsuz istismarına və ekoloji terrora qarşı keçirilən dinc etiraz aksiyasının 2022-ci il dekabrın 20-də BMT Təhlükəsizlik Şurasının iclasında bəzi dövlətlər tərəfindən birtərəfli, qərəzli şəkildə təqdim edilməsi, müzakirələrin yerdə real vəziyyəti əks etdirməməsi ilə bağlı təəssüfümüzü ifadə edirik.

Ermənistan və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın bu platformadan birtərəfli şəkildə sui-istifadə etmələri, beynəlxalq ictimaiyyəti çaşdırmaları və çirkin propaqanda aparmaları qəbuledilməzdir. Bu kimi arzuolunmaz cəhdlər regionda davamlı sülhün əldə olunmasına xidmət etmir, əksinə vəziyyətin gərginləşməsinə xidmət edir. Ermənistan, Qarabağda olan kriminal işbazlar və bir sıra müharibə cinayətkarları da qəsdən yerli əhalini öz siyasətlərinin girovuna çevirir və onların Azərbaycan tərəfi ilə təmaslarına imkan vermir, süni "humanitar fəlakət" ab-havası yaratmağa çalışırlar.

Eyni zamanda, BMT Təhlükəsizlik Şurasında tamamilə əsasız şəkildə Ermənistanın Azərbaycanın suveren əraziləri haqqında iddialarla çıxış etməsi qəbuledilməzdir və bu cür yanaşma Təhlükəsizlik Şurasının təməl prinsiplərinə ziddir.

Bir daha bildiririk ki, etiraz aksiyası dinc xarakter daşıyır və vətəndaş cəmiyyətinin nümayəndələri Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə və ətraf mühitə bərpa olunması mümkün olmayan zərərin vurulmasına son qoyulması istiqamətində şüarlar səsləndirirlər. BMT Təhlükəsizlik Şurasındakı müzakirələrin haqlı narahatlığımızı nəzərə almamasını vətəndaş cəmiyyətinə sayğısızlıq, qərəzli münasibət və selektiv yanaşma kimi dəyərləndiririk.

Təəssüflə vurğulamaq istəyirik ki, dünyada sülhün və təhlükəsizliyin qorunmasına cavabdeh olan əsas qurum kimi BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarını 30 il ərzində işğal altında saxlamasına, etnik təmizləmə siyasətinə, Xocalı soyqırımına, 1 milyondan çox azərbaycanlının öz doğma yurdlarından qovulmasına, Azərbaycan xalqının mədəni irsinin məqsədli şəkildə dağıdılmasına və talan olunmasına, qeyri-qanuni məskunlaşdırma siyasətinə göz yumdu və özünün qəbul etdiyi qətnamələrin icrası istiqamətində heç bir addım atmadı. BMT Təhlükəsizlik Şurasının ikili standartların girovuna çevrilməsi təəssüf doğurur.

Etiraz aksiyasının keçirildiyi yerdən medianın, ayrı-ayrı sosial şəbəkə istifadəçilərinin verdiyi məlumatlardan aydın görünür ki, humanitar yük, sərnişin daşıyan nəqliyyat vasitələri, təcili tibbi yardım və digər humanitar nəqliyyat vasitələri sərbəst hərəkət edə bilir və bunun üçün aksiya iştirakçıları tərəfindən hər bir şərait yaradılır. Həmçinin ölkəmizin Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin humanitar problemlərinin operativ şəkildə həlli üçün QHT-lər tərəfindən qaynar xətt yaradılıb. Buna görə də, erməni əsilli sakinlərin guya "blokada"ya alınması kimi iddiaların heç bir əsası yoxdur.

Biz aksiya iştirakçıları olaraq Laçın yolunun hərbi məqsədlər üçün istifadə olunmasına, təbii sərvətlərimizin talan edilərək ölkədən çıxarılmasına son qoyulmasını tələb edirik. Laçın-Şuşa-Xankəndi yolu Azərbaycan Respublikasının suveren ərazisidir.

Biz, həmçinin Ermənistan hakimiyyətinin, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qanunsuz erməni silahlı dəstələrinin erməni əsilli sakinləri təhdid etməsinə, onların Azərbaycana reinteqrasiyasına bütün vasitələrlə maneə olmasına qəti etiraz edirik. Biz erməni əsilli sakinləri birgə yaşayışa dəvət edirik.

Vətəndaş cəmiyyəti təmsilçiləri olaraq Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızın humanitar problemləri olduğu halda, onların aradan qaldırılması üçün bütün resurslarımızı səfərbər etməyə hazır olduğumuzu bir daha bəyan edirik".

# Kür çayının deltasında suaşıran bənd inşa olunur

**Neftçalada dəniz suyunun Kür çayına qarışmasının qarşısını almaq üçün deltada suaşıran bəndlərin vurulması davam edir**



Son illər Neftçalada dəniz suyunun Kür çayına qarıması və suyun şorlaşması yerli sakinlərin ciddi narahatlığına səbəb olmuşdu. Belə ki, çay şorlaşdığından əhali həm içməli su sarıdan, həm də əkin sahələrinin suvarımasında çətinliklər çəkirdi. Bu da əhalinin yaşayış tərzinə mənfi təsir göstərirdi.





Nəhayət bu probıemin həll edilməsi məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və Meliorasiya və Su Təsərrüfatları ASC-nin mütəxəssisləri tərəfindən Kür çayı boyu 50 kilometrlik ərazidə yuxarı axına doğru monitorinqlər keçirilib, çaydan su nümuləri götürülərək analizlər edilib. Problemin həlli istiqamətində layihə hazırlanıb.

Artıq layihə çərçivəsində dəniz su axınının qarşısının alınması məqsədi ilə çayın deltasında Əsas Qol və Bala Kürün mənsəbində oktyabrın 25-dən etibarən su aşıran bəndlərin vurulmasına başlanılıb. Son günlər havaların qeyri-sabit keçməsi nəticəsində bəndvurma işlərində fasilələr yaranmasına baxmayaraq işlər yenidən davam etdirilir.

"Bəndvurma işlərinə 50-yə yaxın müxtəlif təyinatlı texnika cəlb olunub. Həmin texnikalar vasitəsi ilə fiziki-mexaniki xüsusiyyətlərini çox az dəyişən qum-çınqıl qarışığı daşınır, çayın deltasına tökülür. Artıq suaşıran bəndlərin 80-85 faizində işlər yekunlaşıb. Kürün Əsas Qoluna vurulan bəndin uzunluğu 350 metr, eni 16 metr, Bala Kürə vurulan bəndin uzunluğu isə 200 metr təşkil edəcək"-deyə iş icraçısı Famil Yolçuyev bildirir.

İş icraçısı Famil Yolçuyevin sözlərinə görə, suaşıran rolunu oynayacaq bu bəndlərin üst hissəsinin Xəzər dənizinin su səviyyəsindən ən azı 20 santimetr hündür olacaq. Kürün qarşısı kəsildikdən sonra bəndlərin üstü xüsusi hazırlanmış dəmir torlarla örtüləcək və üzəri çay daşları ilə bərkidiləcək. Bu da bəndin üzərindən su keçərkən yuyulmanın qarşısını alacaq. Bundan əlavə balıqların dənizdən çaya və ya əks istiqamətə keçməsi üçün xüsusi qurğular da tikiləcək. Həmin qurğuların dərinliyi 60 santimetr, eni isə 4,7 metr olacaq. Bununla da bu problem öz həllini tapacaq.

"Çayın Əsas Qolunda vurulmuş suaşıran bəndin üzərindən saniyədə 735 kubmetr, Bala Kürdə isə 425 kubmetr su ötürmək mümkün olacaq. Gələcəkdə Kür daşqınları baş verərsə, yəni saniyədə 1500-2000 kubmetr su keçərsə, o zaman bənd yuyulmaqla sahilboyu yaşayış məntəqələrində təhlükə sovuşacaq",- Famil Yolcuyev deyir.

ANA KÜR

Dekabr 2022-ci il

SON SƏHİFƏ

# SALYAN SÖZÜNÜN ETİMALOGİYASI VƏ TARİXİ İLƏ BAĞLI COĞRAFİ YERLƏR

*Əvvəli ötən sayımızda*

2011-ci ilin oktyabr ayinda Salyan rayon ərazisində çox da hündür olmayan Babazənan dağının cənub ətəklərindən torpaq qazıntısı zamanı içərisində qəbirlər olan küp aşkar edildi.Tapılmış qəbirlər İslamdan əvvəlki dövrlərə aid olduğu müəyyən edildi. Qəbirlərin indiyə qalmasına səbəb Babazənan dağının palçıq vulkanik sahəyə aid olması ilə əlaqədardir.

Çox güman ki,ərazidə yerləşən bu qəbirlərin üstünü palçıq lavalarının örtməsi olmuşdur. Qəbirlər təqribən 120-125 metr aşağıda alluvial çöküntü qatında yerləşir. Bu da onu göstərir ki,vaxtı ilə Kür çayi bu ərazinin yaxınlğından keçib. Hələ qədimdən insanlar təbiətdən tam aslı olduqundan çay boyunca məskunlaşmışlar. Salyan rayon ərazisi yarım səhra zonasında yerləşdiyindən əksər yaşayış məntəqələri Kür və onun qolu olan Akkuşa çayı boyunca yerləşmişdir.

AMEA-nın Arxeologiya İnstitutunun Əməkdaşları tərəfindən yeni tapılmış Babazənan sahəsində arxeoloji kəşfiyyat və qazıntı işləri aparılıb. Maraqlı burasıdır ki, hər küp qəbirin yanında kiçik küplər də qoyulmuşdur. Tarixi mənbələrə əsasən, o dövrün dini qaydalarına görə insanın dirilmə ehtimalı olduğuna görə kiçik küplərdə onlar üçün yemək məhsulları qoymuşlar. Kiçik küplərdə aşkar edilmiş ərzaq məhsulları buna misaldır və bunu sübut edir.

Fransa Respublikasının milli arxeoloji tədqiqatlara dair beynəlxalq ekspertlər Babazənan dağında tapılmış əşyaların yaşının 2800 il olduğunu təsdiq etmişdir.

Bu dağın adına müxtəlif yazılışlarda: Babazannı, Babazənən, Babazanan, Babazənan və s. rast gəlinir. Toponimlərdə dağ adı ilə izah etmək istəyənlər çoxdur. Məsələ burasındadır ki, dağ əmələ gəlməmişdən əvvəl ərazisində yaşayış yeri olduğu aşkar oldu. Bu adların hər biri zaman keçdikcə fərdiləşir, özünə məxsus coğrafi obyektə çevrilir. Onlar hər hansı bir dilin qrammatik qanununa tabedir.

Zaman keçdikcə fərdiləşir,zaman keçdikcə adların bəzilərinin yazılış və tələffüz forması dəyişdirildiyindən onların məna axtarışı da çətinləşir.

Babazənan dağının mütləq hündürlüyü 41m (dəniz səviyyəsindən olan hündürlük) nisbi hündürlüyü 66 metrdir. İki silsilə şəklində şimaldan cənuba doğru uzanır.

Babazənan dağında geoloji xəritəsalma işləri ilk dəfə 1914 cü ildə aparılmışdır. 1927-ci ildə neft, qaz yataqlarının axtarışına başlanmışdır. Sahəni təşkil edən qırışıq asimmetrik braxiantiklinal quruluşludur. Şimal qərbdən cənub şərqə uzanır. Şimal şərq qanadda layların yarım bucağı 25-350, cənub qərb qanadında 10-150-dir. Qırışıq ox boyunca iki pozulma ilə kəsilir. Babazənan və Durovdağ palçıq vulkanları bu pozulmalarla əlaqədardır. Durovdağda palçıq vulkanlar indi də fəaliyyətdədir. 50 dən artıq palçıq vulkanlarından axan lava cənubunda yerləşən qədim Kür çayının yatağına axır. Babazənan dağında isə palçıq vulkanlar öz fəaliyyətini çoxdan dayandırıb. Babazənan dağında bitki örtüyü çox zəifdir. Dağın yuxarı hissələrində yarımsəhra ot bitkilərinə rast gəlmək olar .

1968-ci ildə akademik Mirəli Qoşqay Babazənan dağında tədqiqat işləri aparmışdır. O, bu ərazidə çıxan "Şır-Şır", "Ayranlı", "İsti su"yun müalicəvi əhəmiyyəti haqqında məlumat vermişdır. İndinin özündə də yay aylarında Salyan və qonşu rayonlardan yüzlərlə insanlar bu sulardan istifadə edərək şəfa tapır .

"Şır-şır "suyu Babazənan dağının cənub ətəyində təqribən 5 m hündürlükdən tökülür.

Suyun tərkibində ion, kükürd və karbonla zəngindir. Əhali Şırşırdan əvvəllər də müalicə məqsədi ilə istifadə etmiş, hazırda da iştifadə etməkdədir. Axan su 30 kvadratmetr ərazidə göl yaradıb. Bu göl sahəsini qış ayında genişləndirir.

İstisu Babazənan dağı ətəyində termik bulaqdır. Yel, oynaq xəstəliyindən əziyyət çəkənlər bu bulağın suyundan istifadə edirlər.

Ayranlı su saç tökülməsinin qarşısını alır. Suyun tərkibi müxtəlif minerallarla zəngindir. Suyun süd rəngində olması sirri hələ bu vaxta kimi təbiətin bu möcüzəsinin səbəbi məlum deyil. Təəssüflər olsun ki, Babazanlıda çıxan müalicə əhəmiyyətli sulara və tapılan tarixi abidəyə biganəlik üzündən sular ətrafında natəmizlik, tarixi abidə isə il boyu açıq havada qalması nəticəsində məhv olur. Halbuki Babazanlı tarixi abidəsi haqqında fərman vermişdir.

Muğan Babazanlı abidəsinin 2800 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Salyan rayon icra hakimiyyəti ilə birlikdə Muğan Babazanlı abidəsinin 2800 illiyinin qeyd olunmasına dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

"Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri 29 oktyabr 2013-cü il.

Əgər bu əraziyə vaxtında diqqət verilsəydi həm səhiyyə sahəsində sanatoriyalar həm də tarixi abidəyə baxmaq üçün çoxlu turistlər baxmaq üçün cəlb olunardı.

Maraqlı məlumatlardan biri də 1968-ci ildə Salyan rayonu ərazisində Qaraymanlı, Boyat kəndləri ərazisində belə küp qəbirlərə rast gəlsələr də, yerli əhali tərəfindən buna əhəmiyyət verilməmişdir. Qaraymanlı kəndi ərazisində Salyanın köhnə qəbiristanlığı deyilən sahəsində çəkisi 150 kq olan daş tapılmışdır. Daşın üzərində çəkilmiş üçbucaq şəkillər ilin dörd fəsillərini göstərir. İndinin özündə də bu daş insanlar tərəfindən müqəddəs daş hesab edilir. Daşı köhnə yerindən gətirib Kür çayı sahilinə qoyublar ki, yazda Kür çayı daşanda kəndə böyük ziyan vurmasın və müqəddəs daş dəyəcək ziyanın qarşısını alsın.

Hal hazırda islamdan əvvəlki dövrün Aran zonasından tapılan daş üzərindəki şəkillər, zinət əşyaları, o dövrün dini təliqətlərin öyrənilməsinə böyük ehtiyacı olduğunu tələb edir. Ümumiyyətlə Aran zonasında İslamdan öncə tarixi araşdırılma bu vaxta kimi aparılmadığından hələ Babazənan ərazisindən başqa qədim yaşayış məskənlərinin sirri açılmamış qalır.

Hazırda Salyan şəhəri ilə Babazənan dağı arasındakı məsafə 5 km olar. Kür çayı öz yatağını dəyişməsi nəticəsində rayonun daxilində əhali özləri şəraitə uyğunlaşmaq üçün miqrasiya olub. Bu səbəbdən də əhali çox güman ki, nisbətən Cənubda məskunlaşıb.

Azərbaycan tarixinin qədim dövrünün öyrənilməsinə XIX əsrdən başlanmış, lakin tədqiqatlar ardıcıl aparılmamışdır. Salyan rayonu ərazisində bir çox qədim yaşayış məskənlərinin arxeoloji cəhətdən ciddi tədqiqata ehtiyacı vardır.

Həmçinin qeyd etmək lazımdır ki, Babazənan dağının cənubunda yerləşən küp qəbirlərin yaxınlığında yaşayış məntəqəsinin olduğu da aşkarlanıb. Yəqin ki, qədim Salyanın tarixi haqqında həqiqətlərin üzə çıxarılmasında Babazən dağındakı tapıntı böyük rol oynayacaqdır.

Hazırki Salyandan 13km məsafədə yerləşən Qırxçıraq da ən qədim yaşayış məskənlərindən biri hesab edilir. Qırxçıraq yaşayış məskəni Mahmudabad şəhərindən daha qədimdir. Mahmudabad şəhəri 1295-ci ildə Sultan Mahmud xan Arqunoğlunun göstərişi ilə Kür çayının mənsəbinin iki qolu arasında salınıb. Qırxçıraq yaşayış massivində həyatın hələ XIII əsrin əvvəllərindən mövcud olması müəyyənləşdirilmişdir. Həyətyanı sahələrdə təsərrüfat işləri görülərkən tapılan əşyalar bunu bir daha sübut edir. Salyan rayonu ərazisində ən qədim pul Qırxçıraqda tapılıb.

Qırxçıraq kəndində təsərrüfat işləri zamanı tapılmış 2,6 qram çəkisi olan gümüş sikkə ekspertiza üçün Azərbaycan Milli Elmlər Akademiyasının Tarix Muzeyinin Numizmatika şöbəsinin müdiri, tarix elmlər doktoru, professor Əli Rəcəbliyə təqdim edilmişdir. O, bu tapıntıya belə bir rəy verdi: "Sikkənin üzərində qorunub saxlanmış ornament nümunəsinə və bir neçə hərfə əsasən Elxanilər dövrü (1256) üçün xarakterik olduğunu söyləmək mümkündür. Sikkənin üzərindəki dəlik onun bəzək əşyası kimi istifadə olunmasını ehtimal etməyə əsas verir". Bundan başqa Qırxçıraqda yaşayan İbrahimov Zakirin həyətyanı sahəsində təsərrüfat işləri zamanı tapılan çıraqlar, qab-qacaq XIII əsrin əvvəllərinə aid olduğunu bildirir.

Qədim Qırxçıraq şəhəri xarabalığında Mahmudabadda həkk edilmiş sikkələrə rast gəlinməsi göstərir ki, Mahmudabad Salyan rayonunun ərazisində olub Şirvan Şahlığının inzibati mərkəzlərindən biri sayılmışdır. Sonralar isə Qırxçıraqda Qazan xanın (1295-1304) dövründə kəsilmiş pullar işlədilmişdir. Bu o demək deyil ki, Qırxçıraq Mahmudabaddır. (Azərbaycan tarixi kitabında, Bakı 2007, I hissə) Xəritədə Mahmudabad şəhərini Qırxçıraqın yerində göstəriblər. Bu düzgün deyil.

Apardığım tədqiqatlara əsasən Rusiya Elmlər Akademiyasının "Kavkazovedeniye," №18 2010 elmi jurnalında Salyan rayonu ərazisində yerləşən Qırxçıraq və Mahmudabadın ayrı-ayrılıqda şəhərlər olmasını təsdiq edən sənədlərlə əsaslandırmışam. Ümumiyyətlə, söyləmək lazımdır ki, tarixçilərimiz Azərbaycan ərazisində olan Aranla dağlıq ərazisinin əlaqəsini düzgün işıqlandıra bilməmişlər. Bu səbəbdən Salyanın tarixində qaranlıq məqamlar çoxdur .

İndiki Salyan XV əsrdə mövcud olub ,qədim indiki yerinə A.Bakıxanova görə 1799-cu ildə 4 ağac yuxarıya köçürülüb. Məsələ bundadır ki, XV-XVIII əsrlərə kimi olan tarixi boşluğu arxeoloqlar tutarlı faktlarla aşkara çıxarmamışlar. Bəs indiki yaşadığımız Salyan şəhərinin tarixi haqqında nə deyə bilərik?

Rus tədqiqatçısı və səyyahı K.Sadovski 1880-ci illərin əvvəllərində Salyan şəhərində olmuşdur. İndiki Cümə məscidinin qarşı tərəfində rus dilini bilən bir adamla görüşmək istəyib. Onu deyim ki, 1865-ci ildə tikilmiş bu məscid keçmişimizdən indiki Salyanımıza qalan yeganə tarixi abidədir. Rus səyyahına Zeynalov Məşədi Ağaqulu Məşədi Baba oğlu və Məşədi Malik Məşədi Fərəc oğlu bildiriblər ki, Kür və onun qolu olan Akkuşa çayı ilə Xəzər dənizi arasında yerləşən Salyan düzü və yaxud "Salyan adası" il boyu gəlirli olub, əkinçilik, bağçılıq, bostançılıq, heyvandarlıq, balıqçılıq, ticarət gəmiçiliyi üçün əlverişli yerdir .

K.Sadovski "Salyanın tarıxi "adlı əlyazmasında (1884-cü il Qars şəhərində yazılıb başa çatdırılan bu əsər Sankt-Peterburq Ermitaj muzeyində əlyazmalar fondunda saxlanılır), Akkuşanın bir qol kimi müstəqil olması və bu çay boyunca yerləşən yaşayış məntəqələri əhalisinin yüklərinin gəmi vasitəsilə daşınması və Kür çayında gəmilərin böyük şəhərlərlə ticarət əlaqəsi yaratmasını göstərir. Maraqlıdır ki, Akkuşa çayının mənsəbində son illərə kimi Xəzər kəndində (Lapatin) gəminin biri qalmaqda idi .

Məhşur səyyah və coğrafiyaşünas Zeynalabdin Şirvani də XIX əsrin birinci yarısında Salyanda olmuş, buranı mühüm liman, varlı və gəlirli yer adlandırılmışdır. O, yazırdı ki, Salyan ərazisinin uzunluğu 20 fərsəx ,eni isə 10 fərsəxdir (1 fərsəx 7 km-dir). Salyanın ilk sakinləri bura gəlməmişdən qabaq "Salyan "adı mövcud imiş. A.Bakıxanov da göstərir ki, bu yerlərin (Dərbənd, Quba, Bakı, Şirvan və s.əyalətləri) adamları Səfəvilər vaxtında və ya ondan sonra fars, ərəb əyalətlərindən gəlmiş türk tayfalarıdır .

Nadir şah (1736-1747-ci illər) şahlıq dövrü) salyanlıların ilk sakinlərini balıq vətəqələrində işləmək üçün Hindistanın Çaradça mahalından gətirmişdi. Seyid və şiyə mənsəbli türk dilli tayfaları Kür çayının mənsəbini sağ tərəfində hazırki, Aşağı Qaraimanlı və Boyat kəndlərinin ərazisinə köçürmüş və onu İbrahim xanın sərancamına vermişdir. Hətta buranın bir illik gəlirlərini də İbrahim xana bağışlamışdır.

İbrahim xan Nadir şahın qardaşı olub, İranın Azərbaycan və Dağıstanda olan torpaqlarını idarə edirmiş. Bir zamanlar həmin ərazilər Mahmudabada aid imiş.

A.Bakıxanov göstərir ki, 1295-1304-cü illər (hic. 694-703) illərdə İran şahı Sultan Mahmud Qazan xan Arqunoğlu tərəfindən 1295-ci (hic 694) ildə Kür çayının mənsəbində iki qolu arasında Mahmudabad şəhəri salınıb. Əmir Teymurləng 1394-cü (hic.796) ildə və Şah İsmail Səfəvi 1501-ci (hic.1906) ildə qışı Mahmudabadda keçirmişlər.

XVII əsrin ikinci yarısında, İkinci Şah Abbasın vaxtında Dağıstan əmirlərindən olan ismi sülaləsinin iki tayfası arasında irsi hakimiyyət üstündə vuruşma olur. Məğlub olan tərəfin adamları öldürülür. Yalnız sağ qalan az yaşlı Hüseyn Xan adlı uşağı qaçırıb gizlədirlər. O, böyüyüb igid bir oğlan olur. Bir müddət Salyan Rubdarında (hazırki Xalac, Qaraçala və s kənd əraziləri) Qazi Axund molla Məhəmmədin evində qonaq qalır. Salyan Rubdarı qazısının qızını alır, daha sonra İsfahana köçərək, Qacar əmirləri Xanədanının qızı Zöhrə xanımla evlənir. Həmən qız vasitəsi ilə şaha yol tapır, xidmətində bir müddət olur. Şahın etimadını qazanır. Şah Quba mahalının ixtiyarını Hüseyn xana verir.

Onun Zöhrə xanımdan oğlu Əhməd, Salyan Rudbarının qızından isə Qəbulə xanım olmuşdur. Salyan nahiyyəsinin əmirləri onun nəslindən olmuşdur. Hüseyn xan 1689-cu ildə Qubada ölür. Quba və Salyan mahalını Əli Sultan Həmzə ələ keçirir. 1710-cu ildən isə Hüseyn xanın oğlu Əhməd hakimiyyəti ələ alır .

XVII əsrdə İran Şimali Qafqaz, Türk və Rusiya ilə ticarət yolları uzun müddət Salyandan keçmişdir.Şamaxı və Salyan-Həştərxan dəniz yolu vasitəsilə Rusiya şəhərləri ilə ticarət əlaqəsi yaratmışlar.

Ona görə də Salyan dəfələrlə əldən-ələ keçmişdir. 1724-cü ildə İstanbulda rus-türk müqaviləsi bağlandı. Xəzər sahili Azərbaycan əyalətləri Rusiyaya, qərb əyalətləri isə Türkiyənin ixtiyarına verildi. I Pyotr Kür çayının ağzında böyük bir ticarət şəhərinin salınmasını planlaşdırmışdı. Onun ölümü bu işi pozdu. Pyoturun ölümündən sonra sonra Rusiyada idarəetmə işləri zəiflədi. Nadir şah bundan istifadə edərək işğallara başladı. 1735-ci ildə Gəncədə bağlanan müqaviləyə görə Xəzər sahilləri, o cümlədən Salyan ərazisi də İrana qaytarıldı.

Nadir şah çox zalım olmuşdur.Onun vaxtında ölkəsi dağılmış, əhali çox əziyyət çəkmişdir. O, 9 may 1747-ci ildə Xorasanın Fəthabad adlı məhəlləsində qardaşı oğlu Əliqulu xan vasitəsilə öldürülür.

Nadir şahdan sonra İranda hərc-mərclik başlanır və ölkə feodal dövlətlərə parçalanır. XVIII əsrin ortalarında Azərbaycanda müstəqil xanlıqlar yaranır. Salyan ərazisində yerli feodal İbrahim Rudbarlı 1748-1757-ci illərə kimi müstəqil xan olur.

Əhali ilə pis rəftar etdiyinə görə yerli varlılar Quba xanı Hüseyn Əli xana müraciət edib onu Salyana dəvət edirlər. Hüseyn Əli xan oğlu Fətəli Ağanı qoşunla göndərib ata-baba mülkü olan Salyanı 1757-ci ildə öz qohumu Rudbarlı İbrahim Xanın əlindən alır.

Hüseyn Əli xan 1758-ci ildə vəfat edir. Yerinə oğlu Fətəli Xan keçərək 1758-1789-cu illərdə Quba xanı olur. Fətəli xan öləndən sonra oğlanları Əhməd xan, Əli xan, Şeyx Əli xan Quba xanlığını idarə edirlər. Salyan bir növ Quba xanlığının gəlir mənbəyinə çevrilir.

1797-ci ildə Qubalı Əli xan yaşamaq şəraiti əlverişli olmadığına görə Salyanı köhnə yerindən indiki Salyan şəhərinin yerinə köçürərək oranı Salyan, köhnə yeri isə Aşağı Salyan adlandırır. Bu barədə XIX əsrin səksəninci illərində yaşamış salyanlı Hacı Qasım, Hacı Mehdi oğlu K.Sadovskiyə məlumat verərək göstərmişlər ki, babası Ağatağı bəyin qeydiyyat kitabında bu barədə qeyd edilmişdir. 1799-cu ildə Mustafa xan Şirvanlı Salyanı Qubalı Şeyx Əli xanın əlindən alır. İbrahim xan Rudbarlının oğlu Əlixan Salyanda xan olur. Fəqət bir müddət sonra Əli xan Talış Mirmustafa xanın tərəfinə keçir. 27 dekabr 1805-ci ildə Mustafa xan Şirvanlı rus tabeliyini qəbul edir. 1806-cı ildə rusların köməyi ilə Salyanı yenidən alır.Əli xan qaçır. 12 oktyabr 1813-cü il tarixli Gülüstan müqaviləsinə əsasən Şimali Azərbaycan Rusiya ilə birləşdirilir. Mustafa xan Şirvanlıya baş Xan rütbəsi verilir. Fəqət Mustafa xan Şirvanlı gizlində Rusiyaya qarşı İran ilə əlaqə saxlaması rus qoşunlarının komandanı Yermolova bəlli olduqda, o, 1820-ci ildə İrana qaçır. Şirvan və Salyan torpaqlarında rus idarələri yaranır. Bundan sonra uzun müddət Salyan ərazisində çarizm ağalıq etmişdir.

İndiki Salyan coğrafi miandrda yerləşir, yəni üç tərəfdən Kür çayının suları ilə əhatə olunub.Cənub hissədən onun quruya çıxışı var. Hələ çar Rusiyasına tabe olduğu dövrdə Zaqafqaziyada ilk meteroloji stansiya Salyanda yaradılıb. Bunun da əsas səbəblərindən biri gəmiçiliyin həm Kür çayında, həm də onun qolu olan Akkuşa çayında inkişafı ilə əlaqədardır.

Sovet hakimiyyəti qurulduqdan sonra Salyanın yenidən qurulması küçələrin düz və hər tərəfdən Kür çayına paralel şəkildə çıxması planlaşdırılır. Planlaşdırma aparılarkən bir çox tikililər, o cümlədən Karvansarayların, Cümə məscidinin və evlərin küçəyə çıxan hissələri sökülmüşdür. Azərbaycanda yeganə şəhərdir ki, Salyanın küçələri düz xətt boyunca salınmışdır. Salyan 1916-cı ildən şəhər hesab olunmuş, 1930-cu ildən isə rayon mərkəzi statusu almışdır.

Bu planlaşdırma Mirbəşir Qasımov tərəfindən həyata keçirilmişdir. O vaxtdan sonra küçə adları yaranmağa başlamışdır. Ondan əvvəl "Heyvalıq", "Köhnə bərə ağzı", "Qasım suatı", "Cındıra", "Şilli" məhəllələri kimi tanınan yerlər yaşlı nəslin hafizəsində indi də qalır.

Təbriz şəhərində Azərbaycan tarixi muzeyində eksponatlara baxarkən buradakı qızıl və gümüş pulların altındakı yazılar diqqətimi cəlb etdi. Orada yazılmışdı: "1294-1303-cü illərdə Sultan Mahmud Qazan xanın dövründəki sikkələr". Pulların üst hissəsindəki XIII əsri əkə etdirən xəritədə göstərilir ki, bu pullar Zəncanda, Şirvanda, Təbrizdə buraxılıb. Şirvan xəritədə dördkünc işarə ilə, Kür çayının mənsəbinə yaxın idi.

Abbasqulu ağa Bakıxanov "Gülüstani-irəm" əsərində göstərilir ki, 1295-1304-cü illərdə İran şahı Sultan Mahmud Qazan xan Arqun oğlu Xəzər yaxınlığında, Kür çayının mənsəbinin iki qolu arasında Mahmudabad şəhərini saldırmışdır. Muzeydəki yazı ilə XIX əsrdə yaşamış yazıçının fikirlərinin üst-üstə düşməsi əlbəttə, birillik fərq neçə yüzillər üçün böyük xəta deyil. Onu da qeyd etmək istərdimki, Arqunoğlunun həyatını dərindən öyrənməyə məndə həvəs yaratdı. Çünki Arqunoğlu Muğan bölgəsində məşhur olan Mahmudabad şəhərini salan şəxsdir. Yeri məlum olmadığına görə, Mamudabad şəhərində indiyə kimi arxeoloji qazıntı aparılmayıb. O da məlumdur ki, arxeoloqlar rayonumuzdakı qədim Qırxçıraq şəhəri xarabalığından Mahmudabadda zərb edilmiş sikkələrə rast gəlmişlər.

Çingiz xanın nəvəsi olan Hülakü xan (1217-1265) qardaşı Manquxan tərəfindən Orta Asiyaya yürüşə göndərilir. Hülakü xan 1253-1256-cı illərdə apardığı müharibələr nəticəsində Ön Asiyanı tutur və burada Elxanilər dövlətini yaradır. Elxanilər dövləti 1256-1357-ci illərdə 101 il mövcud olmuşdur. Sülalənin banisi Hülakü xan 1256-1265-ci illərdə İran şahı olmuş, Marağanı paytaxt seçmiş, elmin, mədəniyyətin inkişafına xüsusi diqqət yetirmişdir. Görkəmli Azərbaycan alimi Nəsirəddin Tusinin rəhbərliyi ilə Marağa rəsədxanası da bu dövrdə tikilmişdir. Hülakü xanın vəfatından sonra onun oğulları Abaqa (1265-1282), Əhməd Təkudar (1282-1284), Arqun xan (1284-1291), Keyxati (1291-1295) və Baydu (1295) hökmdarlıq etmişdir.

Dövləti zəif idarə etdiyinə görə əyanlar tezliklə Baydu xanı hakimiyyətdən uzaqlaşdırmışlar. Baydu xandan sonra Arqunoğlu 1295-1304-cü illərdə hakimiyyətdə olub. Qazan xan 1271-ci ildə anadan olub, 1304-cü ildə 33 yaşında Qəzvində xəstələnərək vəfat edib.

Misirdə, Suriyada və başqa ölkələrdə uzunmüddətli müharibələr edən Arqun xan yoluxucu xəstəliyə tutulmuş və dövrünün görkəmli həkimləri onu sağalda bilməmişlər. Vəsiyyətinə görə onu Təbrizdə dəfn ediblər. Qazan xan şah elan edildikdə 24 yaşı var idi. Moqul tayfasından olan Qazan xan budda dininə etiqad edirdi. Şahın yaxın dostu və köməkçisi Əmir Novruz vasitəsi ilə şahlığın ilk ilində islam dinini qəbul edir və bildirir ki, daha onun adı Qazan xan yox, Mahmud xandır. O, ərəb, fars, hind, çin, türk, moqul ibri dillərini mükəmməl bilirmiş. Tarix və coğrafiya elmində xüsusi istedadı olub. Mahmud xan hakimiyyətinin ilk dövründə Şirvanda şəhər salmaq fikrinə düşür. Təbrizin gözəl şəhər olması Fəzlullah Rəşidəddinin adı ilə bağlı olduğu üçün şah Şirvandakı bu şəhəri də yaraşıqlı və gözəl görmək istəyirdi. O, öz fikrini vəziri Fəzlullah Rəşidəddin bildirir və şəhərsalmanı ona tapşırır. Şahın tapşırığına təzə şəhərdə gözəl yollar, körpülər, mədrəsələr tikilməli idi. Fəzlullah Rəşidəddin iki il müddətində yeni şəhəri inşa edir. Tikintidə əsasən fars və ərəb əyalətlərindən gələn şiə mənsəbli adamlar çalışırmışlar. Şəhərin açılış mərasimində Mahmud xan özü iştirak edir. O, Rəşidəddinə Təbrizdə tikdiyi giriş qapısının yeni şəhərdə də tikilməsini tapşırır. Onun şərəfinə xalq şəhərə Mahmudabad adı verir. Bu şəhərdə pul kəsilməsi onu göstərir ki, o Şirvanların mərkəzlərindən biri olmuşdur. Pulun üzərində Sultanın adı, Quran ayələri və imamların yazılıb. Qızıl və gümüş pulların 100 misqal olub. Həyatının başa çatdığın hiss edən Mahmud xan vəsiyyət edir ki, onun yerinə qardaşı Sultan Məhəmməd Xudabəndə Ölcaytu şah seçilsin. Mahmud xan vəfat etdikdən sonra Xudabəndə Xorasandan Təbrizə gəlir. O, 1304-cü ildən 1318-ci ilə kimi qardaşından sonra 14 il İran şahı olur. Mahmud xanın bütün fərmanlarının, sərəncamlarının qüvvədə qaldığını bildirir. O da qardaşı kimi çoxlu abadlıq-quruculuq işləri aparır. Hakimiyyəti dövründə üç il qışı Mahmudabadda keçirir. Ümumiyyətlə, Arqunoğulları 90 il hakimiyyətdə olublar. Hər biri gözəl əməlləri və ədalətli olmaları ilə seçiliblər. Onların qəbirləri ingilislərin böyük marağına səbəb olub. Belə ki, söhbət zamanı Şam Qazan məhəlləsində dükanda çalışan 75 yaşlı Riza Diləfruz dedi ki, atam 97 yaşında dünyasını dəyişib. Mənə həmişə deyərdiki, ingilislər onların qəbirlərini çox axtardılar. Bilmirdik ki, nə axtarırlar. Hazirda həmin qəbrin yerində "Xədiceyi -Kübra "mədrəsəsi tikilib. Mahmudxanın özü, qohumları və onun ətrafında çalışan insanların qəbirləri son 70 ildə tamam dağılıb. Bəs, Şirvanda salınmış Mahmudabad şəhərinin taleyi necə olub? Əmir Teymurləng (1369-1405) 1394-cü ildə Azərbaycanda apardığı müharibələrdə Şirvanın inzibati mərkəzlərindən biri olan Mahmudabadı tutmuşdu. Arqunoğullarının hakimiyyətindən 90 il keçməsinə baxmayaraq xalqın ona olan məhəbbətini görən Teymur bu şəhərin qənimətlərini ələ keçiririr və orada yaşayanlara divan tutur. Bu azmış kimi, Ağqoyunlu hökmdarı Uzun Həsənlə Teymuri hökmdarı Əbu Səid arasında 1468-1469-cu illərdə baş verən Mahmudabad vuruşması da bu şəhərin darmadağın olmasına səbəb olur.

Şah İsmayıl Səfəvi 1501-ci ildə Şirvan şahı Fərrux Yasərə qalib gələrək Şirvanı alır. İlk qələbəsindən sonra qışı Mahmudabadda keçirir. Şəhəri dağıdan Teymurləngin əməllərinə heyfislənir. Nadir şahın (1736-1747) hakimiyyəti dövründə də, Mahmudabad ərazisini birillik gəliri ilə qardaşı İbrahim xana bağışlayır. İbrahim xanda qardaşı kimi çox zülümkar və qəddar olduğu üçün Mamudabadın nəinki dirçəlməsinə imkan yaradır, onun yer üzündən silinməsini sürətləndirir .

Ümumiyyətlə, tarixi öyrənəndə belə qənaətə gəldik ki, türkçülüyə fars qısqanclığı olduğu qədim Mahmudabad şəhərini qurub-yaradan şahın şəhəri də, qəbri də yoxa çıxmışdı.

*Nadir Rüstəmov,*
*AMEA-nın "Coğrafiya Cəmiyyəti"nin həqiqi üzvü.*



Qədim Salyan ərazisində tapılan əşyalar



Qədim Salyan ərazisində XII əsrin çıraqları



Qədim Salyanda daş üzərində yazı



Pirəbbə kəndində tapılan qədim qəbir daşları

ANA KÜR

İctimai, ekoloji maarifləndirici qəzet

Təsisçi və baş redaktor:
Rüstəm Məlikov

İcraçı direktor-Leyla Nəsirova, AJB-nin üzvü.

Redaksiya kollektivi ictimai əsaslarla çalışır

Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alnmışdır: № 10/ M-4153.

KapitalBank Salyan r-n filialı, kod: 200435
VÖEN № 9900003611
M/H № 0137010001944
SWİFT AIIBAZ 2x
VÖEN №7000403892
H/h № AZ20AİİB 38210019444300309143

Qəzet "Ana Kür"-də yığılıb və "B-Z" nəşriyyatında çap edilmişdir.

Ünvan: AZ 5200 Salyan ş. Y.Xankişiyev küçəsi-22.
Telefon: 050-381-15-42.
E-mail: ana-kur2011@mail.ru

Tiraj: 400 ədəd.
Qəzet pulsuz paylanır.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.